# Kitab rəfi

**Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təsis etdiyi "Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyasının VI cildi – Süleyman Təkinərin "Seçilmiş əsərləri" çap olunub.**




Seriyanın baş redaktoru AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, cildi ilk mənbələr əsasında tərtib edən, ön söz və qeydlərin müəllifi filologiya elmləri doktoru Nikpur Cabbarlıdır.

Azərbaycan siyasi mühacirətinin İkinci Dünya müharibəsindən sonrakı dalğasının görkəmli nümayəndəsi Süleyman Təkinərin (1917–2006) ədəbi-elmi irsindən seçmələr kitab halında ilk dəfə nəşr edilib.

"Elm və təhsil" nəşriyyatında işıq üzü görən kitab "Ədəbi proses", "Azərbaycan mühacirəti", "Məktublar", "Müsahibə", "Lüğət", "Qeydlər" bölmələrindən ibarətdir. Kitab 280 səhifədən ibarətdir.

***

Türkiyənin məşhur dövlət xadimi, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımın himayəsi ilə keçirilən Beynəlxalq Türk




Dünyası Simpozumunun materiallarının toplandığı "Kecmişdən gələcəyə – Türk Dünyası" adlı məqalələr toplusu işıq üzü görüb. Türkiyə Mədəniyyət və Turizm Nazirliyi yayınları silsiləsindən olan 1600 səhifəlik kitabda tədbir iştirakçılarının türk dünyasının uğur və problemlərinə həsr etdikləri məqalələri yer alıb. Qeyd edək ki, Türkiyə Mədəniyyət və Türizm Nazirliyinin və Ərzincan Binəli Yıldırım Universitetinin təşkilatçılığı ilə baş tutan beynəlxalq tədbirdə 43 ölkədən dəvət olunmuş 800-ə yaxın nümayəndə iştirak etmişdir.

Azərbaycanlı alim və tədqiqatçıların əsərlərinin dərc edildiyi kitaba "Azərbaycan mətbuatı 30-cu illərin repressiya qurbanları sırasında: "Kommunist" qəzeti və türkçülüklə mübarizə" adlı məqalə də daxil edilib. Qəzetimizin tarixi ənənələri və türkcülük idealları ilə bağlı məqalənin müəllifləri Bakı Dövlət Universitetinin prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Əliş Ağamirzəyevlə Beynəlxalq Jurnalistika və İnformasiya siyasəti kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Namiq Əhmədovdur. Qeyd edək ki, Əməkdar jurnalist Namiq Əhmədov həm də "Xalq qəzeti" redaksiyasının əməkdaşı, Türkiyə haqqında dərc edilən çoxsaylı yazıların müəllifidir.

***

Güney azərbaycanlı yazıçı Eluca Atalının yeni kitabı – "İran hizbullah zindanında" nəşr olunub.

Bu barədə verilən məlumatda bildirilir ki, "İran hizbullah zindanında" əsər dörd kitab-




dan ibarətdir: Birinci kitab "İnqilabın travması", ikinci kitab: "Üç vəd, üç tələb", üçüncü kitab: "Qanlı orkestr", dördüncü kitab: "Həyatı tabutda axtaranlar"dır.

Əsərdə xatırladılır ki, 1979-cu ildə İslam inqilabı nəticəsində şahın Tehranı tərk etməsindən sonra Ayətullah Xomeyni İrana qayıtmış və faktiki olaraq ölkənin liderinə çevrilmişdir. Bununla belə, Tehranda yaşamaq istəməyərək, ömrünün sonunadək dövləti Qumdakı mənzilindən idarə etmişdir.

Konkret həyati faktlara əsaslanan romanda İran İslam inqilabı ideyasının Amerikadan gəlməsi və inqilab müəllifi kimi bəşərə tanıdılan imam Ayətullah Xomeyninin, əslində, Ağ evin əmrlərinin icraçısı olduğu sübut edilir. İmam kütləni idarə etməkdən ötrü inqilabdan dərhal sonra ictimai yerlərdə – bazar, xiyaban, universitet, məktəb və hətta doğum evlərinin qarşısında edam ağaclarının qurulmasına fətva verib və bununla da adamların qorxu ilə tərbiyə edilməsi, qorxu hökmü altında onun əmrlərinə tabe olması məqsədini güdüb.

Qeyd edək ki, Eluca Atalının "İran hizbullah zindanında" romanı ilk dəfə olaraq sistemli şəkildə bədii təsvir vasitələri ilə xomeynizmin mahiyyətini açır. Kitab "Qanun" nəşriyyatında dərc edilib.

***Ə.ƏLİYEV,***
***"Xalq qəzeti"***